**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**

**Ü.HACIBƏYLİ ADINA BAKI MUSİQİ AKADEMİYASI**

*Əlyazması hüququnda*

**MEHRİBAN ƏBDÜRRƏHİM QIZI QASIMOVA**

# AZƏRBAYCAN MUSİQİSİNDƏ DİRİJORLUĞUN TƏŞƏKKÜLÜ VƏ İNKİŞAF MƏRHƏLƏLƏRİ (XALQ ÇALĞI ALƏTLƏRİ ORKESTRİ)

**6213.01 – Musiqi sənəti**
**Sənətşünaslıq üzrə fəlsəfə doktoru elmi dərəcəsini**
**almaq üçün təqdim olunmuş dissertasiyanın**

**A V T O R E F E R A T I**

**BAKI – 2013**

**Dissertasiya işi Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin “Musiqişünaslıq” kafedrasında yerinə yetirilmişdir.**

| | |
|---|---|
| **Elmi rəhbər:** | sənətşünaslıq doktoru, professor<br>**Səadət Abutalıb qızı Abdullayeva** |
| **Rəsmi opponentlər:** | Azərbaycan Respublikasının Xalq artisti, sənətşünaslıq üzrə elmlər doktoru, professor<br>**Ramiz Fərzulla oğlu Zöhrabov** |
| | sənətşünaslıq üzrə fəlsəfə doktoru,<br>**Zəminə Məhərrəm qızı Nəcəfova** |

**Aparıcı təşkilat:** Gəncə Dövlət Universitetinin “Musiqi fənləri” kafedrası

Müdafiə __29/11___2013-cü ildə saat ______ Bakı Musiqi Akademiyasının nəzdində yaradılmış F/D 02.151 Dissertasiya Şurasının iclasında keçiriləcək.

Ünvan: AZ 1014, Bakı şəhəri, Şəmsi Bədəlbəyli küç., 98.

Dissertasiya ilə Bakı Musiqi Akademiyasının kitabxanasında tanış olmaq olar.

Avtoreferat ______________2013-cü ildə göndərilmişdir.

**Dissertasiya şurasının elmi katibi,**
**sənətşünaslıq üzrə fəlsəfə doktoru H.V.MƏMMƏDOVA**

## DİSSERTASİYANIN ÜMUMİ XARAKTERİSTİKASI

**Tədqiqatın aktuallığı.** XX yüzillikdə Azərbaycan musiqi mədəniyyəti böyük inkişaf yolu keçmişdir. Ölkəmizin musiqi həyatında böyük rol oynayan görkəmli bəstəkarlar və ifaçılar yetişmiş, mədəniyyət xəzinəmizi zənginləşdirən adlar meydana gəlmiş, milli musiqi ifaçılığı sənətinin, həmçinin, xalq çalğı alətləri ifaçılığının müxtəlif sahələri, musiqi kollektivləri – simfonik orkestr, xor, xalq çalğı alətləri orkestri və s. formalaşmış, musiqi irsimiz bəstəkarların müxtəlif təmayüllü, rəngarəng məzmunlu əsərlərilə zənginləşmişdir.

Azərbaycan musiqi mədəniyyəti tərəqqi edərək, elə bir mərhələyə çatmışdır ki, onun ayrı-ayrı sahələri və problemlərinin öyrənilməsi vacib və zəruri bir tələbə çevrilmişdir. Bu kontekstdə irəli sürülən aktual problemlər sırasında dirijorluq sənətinin inkişaf istiqamətləri, musiqi əsərlərinin təbliği, xalq çalğı alətləri ifaçılığının inkişafı, ümumiyyətlə, musiqimizin gələcək yüksəliş yollarının müəyyənləşdirilməsi qeyd olunmalıdır.

Dahi bəstəkar Üzeyir Hacıbəylinin yaradıcılığı Azərbaycanda musiqi mədəniyyətinin – bəstəkarlıq yaradıcılığının və musiqi ifaçılığı sənətinin, musiqi təhsilinin, musiqi kollektivlərinin inkişafı üçün təkan nöqtəsi olmuşdur. Bu baxımdan Azərbaycanda dirijorluq sənətinin, musiqi ifaçılığının, o cümlədən, xalq çalğı alətləri ifaçılığının xüsusiyyətlərinin Şərq və Qərb musiqi ənənələrinin qovuşması kontekstində səciyyələndirilməsi aktuallıq kəsb edən mühüm məsələlərdəndir.

Azərbaycanda milli bəstəkarlıq və ifaçılıq mədəniyyətinin qırılmaz tellərlə bağlılığı xüsusi diqqət tələb edən bir məsələdir. Bu bağlılıq Azərbaycan musiqisinin tarixi boyu özünü aydın surətdə göstərərək, özünəməxsus mütərəqqi cəhətlərin formalaşmasında və inkişafında mühüm rol oynamışdır. Azərbaycan musiqisində yaranan yeni əsərlərlə ifaçılıq tələblərinin, xüsusiyyətlərinin dəyişildiyini, müəyyən dövrlərdə yüksəlişini müşahidə edirik. Təbii ki, bütün bunların araşdırılmasına, öyrənilməsinə, sistemləşdirilməsinə böyük ehtiyac vardır və aktual bir mövzu kimi irəli sürülür.

**Mövzunun işlənmə dərəcəsi.** Azərbaycanda xalq çalğı alətləri orkestrinin təşəkkülü, inkişaf yolu və fəaliyyəti daim musiqişünasların diqqətini cəlb edən məsələlərdəndir. Bu mövzu həm müstəqil şəkildə, musiqi mədəniyyətinin bir sahəsi kimi, həm də ayrı-ayrı bəstəkarların yaradıcılığı ilə əlaqədar olaraq işlənilmişdir.

Azərbaycan musiqi mədəniyyətinin ümumi inkişaf yolu ilə bağlı

tədqiqatlarda musiqi mədəniyyətinin digər sahələri ilə yanaşı, xronoloji olaraq, Azərbaycanda xalq çalğı alətləri orkestrinin və dirijorluq sənətinin yaranması və inkişaf mərhələləri də öz əksini tapır. Bu tədqiqatlarda arxiv sənədlərindən geniş surətdə istifadə olunması diqqətəlayiqdir.

«Azərbaycan musiqi tarixi»[1] dərsliyində (müəlliflər – E.Abasova, L.Karaqiçeva, S.Qasımova, N.Mehdiyeva, A.Tağızadə), eləcə də EAbasova və Q.Qasımovun «Sovet Azərbaycanı musiqi incəsənətinin oçerkləri (1920-1956-cı illər)»[2] əsərində əsas məqsəd Azərbaycan musiqi mədəniyyətinin inkişafını işıqlandırmaqdan ibarət olmuşdur. Qeyd etmək lazımdır ki, 1920-ci illərdə Azərbaycanda musiqi təhsili sistemi, yeni musiqi kollektivlərinin təşkili ilə bağlı işlər genişləndirilmişdir. Eyni zamanda, xalq çalğı alətlərinə not sisteminin tətbiq edilməsi nəticəsində xalq çalğı alətləri orkestri yaradılmış, bəstəkarlıq sənətində məhz xalq çalğı alətləri orkestri üçün əsərlərin yazılması geniş vüsət almışdır.

F.Əliyevanın müəllifi olduğu «XX əsr Azərbaycan musiqisi: tarix və zamanla üz-üzə» (Bakı, 2007) əsərini qeyd edə bilərik. Həmçinin, F.Əliyevanın tərtib etdiyi üç cildli «XX əsr Azərbaycan musiqi mədəniyyətinin qaynaqları» (Bakı, 2005) nəşri də diqqətəlayiqdir. Burada XX əsrin əvvəllərində Azərbaycan dövrü mətbuatında dərc olunmuş musiqi-tənqidi, elmi-publisistik məqalə, resenziya və oçerk toplanmışdır ki, bu da həmin dövrdə musiqi mədəniyyəti, bəstəkarlar və ifaçılar – dirijorlar, müxtəlif musiqi alətləri, o cümlədən, xalq çalğı alətləri ifaçıları haqqında, o dövrün musiqi həyatı haqqında dolğun təsəvvür yaradılmasına xidmət edir.

Azərbaycanda dirijorluq sənətinin inkişaf mərhələlərinin xalq çalğı alətləri orkestrinin formalaşması və fəaliyyəti timsalında araşdırılması bilavasitə xalq çalğı alətlərinin tədqiqi və alətşünaslıq məsələləri ilə sıx bağlıdır. Bu baxımdan Azərbaycan xalq çalğı alətlərinin tarixinin, bədii-texniki imkanlarının öyrənilməsi, onların ansambl və orkestrlərdə tətbiqi ilə bağlı tədqiqatlar diqqəti cəlb edir.

Xalq musiqisinin tədqiqi ilə məşğul olan bir sıra musiqişünas-alimlər: Məmmədsaleh İsmayılov, Əfrasiyab Bədəlbəyli, Qubaq Qasımov, Bayram Hüseynli və başqaları Azərbaycan xalq çalğı alətlərinin tədqiqinə müəyyən

---

[1] История азербайджанской музыки (авторы: Абасова Э., Карагичева Л., Касимова С., Мехтиева Н., Тагизаде А.). ч.1. Учебник для вузов. Б.: Маариф, 1992.

[2] Абасова Э.А., Касимов К.А. Очерки искусства советского Азербайджана (1920-1956). Б.: Элм, 1970.

dərəcədə diqqət yetirmişlər. Bu, əsasən, xalq musiqi ifaçılığı, xalq musiqisinin tarixi və nəzəriyyəsi ilə əlaqəli şəkildə həyata keçirilmişdir.

Azərbaycan musiqi elminin bir qolu kimi alətşünaslığın inkişafında xüsusi xidmətləri olan musiqişünas Səadət Abdullayeva öz elmi yaradıcılığında xalq çalğı alətlərini çox əhatəli surətdə tədqiq etmişdir. Onun "Azərbaycan xalq çalğı alətləri" musiqişünaslıq-orqanoloji tədqiqatında (Bakı, 2002) arxeoloji və tarixi dəlillər, orta əsr poeziyası nümunələri və musiqişünaslıq əsərləri əsasında milli musiqi alətlərinin inkişaf yolunun, bədii-texniki imkanlarının, onların ansambl və orkestrlərdə tətbiqi məsələlərinin ətraflı araşdırıldığını görürük.

Musiqişünaslıqda Azərbaycan xalq çalğı alətləri orkestrinə həsr olunmuş bir sıra əsərlər də xüsusi yer tutur. Kərim Kərimovun, Oqtay Quliyevin, Əvəz Rəhmətovun tədqiqatlarında[3] kollektivin keçdiyi yaradıcılıq yolunun dolğun təsviri ilə yanaşı, orkestrin tərkibi və alətlər qrupu haqqında müfəssəl məlumat verilir. Həmçinin, Süleyman Ələsgərov və Səadət Abdullayevanın "Azərbaycan xalq çalğı alətləri və orkestrləşdirmə"[4] adlı dərs vəsaiti də tədqiqatımız üçün ən əhəmiyyətli mənbələrdən biridir.

Bir sıra alətşünas-alimlərin tədqiqatları da Azərbaycan xalq çalğı alətlərinin bədii-texniki imkanlarının öyrənilməsi və orkestrdə tətbiqi baxımından maraq doğurur. Vaqif Əbdülqasımov tərəfindən "Azərbaycan tarı" (Bakı, 1989) əsərində Azərbaycan musiqişünaslığında tar alətinin ilk geniş və hərtərəfli tədqiqi həyata keçirilmişdir. Məcnun Kərimovun "Azərbaycan musiqi alətləri" (Bakı, 2002), Malik Quliyevin "Azərbaycan xalq çalğı alətlərinin təşəkkülü, formalaşması və ansambllarda rolu" (Bakı, 1997), Abbasqulu Nəcəfzadənin "Azərbaycan çalğı alətlərinin izahlı lüğəti" (Bakı, 2003), "Çalğı alətlərimiz" (Bakı, 2004), Fuad Əzimlinin "Azərbaycana xalq musiqisinin qısa lüğəti" (Bakı, 2000), "Zərb alətləri Azərbaycanda" (Bakı, 2008), Aslan Məmmədovun "Simli musiqi alətlərimiz" (Bakı, 2001) və s. əsərlər bu qəbildəndir.

Azərbaycan xalq çalğı alətləri orkestrinin inkişafında və bu sahə üzrə

---

3 Керимов К.Г. Оркестр азербайджанских народных инструментов. Б.: Типография «Красный Восток» Министерства Культуры АзССР, 1959; Quliyev O.S. Azərbaycan xalq çalğı alətləri orkestri. B.: İşıq, 1988.; Rəhmətov Ə.M. Azərbaycan xalq çalğı alətləri və onların orkestrdə yeri. B.: İşıq, 1980.

4 Ələsgərov S.Ə., Abdullayeva S.A. Azərbaycan xalq çalğı alətləri orkestri üçün orkestrləşdirmə. B.: 1996.

dirijorluq sənətinin formalaşmasında mühüm rolu olmuş görkəmli musiqi xadimlərinin – Səid Rüstəmovun, Süleyman Ələsgərovun, Hacı Xanməmmədovun və başqalarının yaradıcılıq yolunu işıqlandıran tədqiqatları da xüsusi qeyd etməliyik. Bu istiqamətdə Ramiz Zöhrabovun[5], Nazim Kazımovun[6], Vidadi Xəlilovun[7], Maya Qafarovanın[8], Yaqut Seyidovanın[9], Səadət Təhmirazqızının[10] və digər müəlliflərin tədqiqatları mühüm əhəmiyyət kəsb edir.

Bu yönümlü tədqiqatlar sırasında Zəminə Nəcəfova[11] da sənətşünaslıq üzrə fəlsəfə doktoru dissertasiyasını müdafiə etmişdir.

Xalq çalğı alətləri orkestri üzrə ifaçılıq sənətinin inkişaf yollarının öyrənilməsi baxımından XX əsrdə meydana gələn ayrı-ayrı xalq çalğı alətlərinin tədrisi ilə bağlı – muğam və not üzrə proqramlar da xüsusi əhəmiyyətə malikdir. Ümumiyyətlə, xalq çalğı alətlərinin tədrisi ilə bağlı çoxsaylı dərs vəsaitləri, metodik tövsiyələr, elmi məqalələr meydana gəlmişdir. Təbiidir ki, bütün bu mənbələrin ayrılıqda araşdırılmasına böyük ehtiyac vardır, elmi ədəbiyyatın cəlb olunması və sistemləşdirilməsi Azərbaycan xalq çalğı alətləri və orkestr ifaçılığının inkişaf yollarının öyrənilməsini təmin edə bilər.

---

[5] Zöhrabov R.F. Bəstəkarlarımız haqqında söz. B.: Şur, 1995. 90 s.; Zöhrabov R.F. Bəstəkarlarımızın portreti. B.: Gənclik, 1997. 122 s.; Zöhrabov R.F. Hacı Xanməmmədovun portretindən cizgilər. //"Musiqi dünyası" jurnalı, № 3-4 (17), 2003. s. 58-61.

[6] Kazımov N.K. Səid Rüstəmov. B.: 2007. 130 s.; Kazımov N.K. Səid Rüstəmovun «Tar məktəbi». // "Musiqi dünyası" jurnalı, №1-2 (31), 2007. s. 41-43.; Kazımov N.K. Səid Rüstəmov və Azərbaycan xalq çalğı alətləri orkestri. // "Musiqi dünyası" jurnalı, №3-4(33), 2007. s. 78-81.; Kazımov N.K. Görkəmli təhsil və sənət ocağı (Bakı Musiqi Kolleci -110). // "Musiqi dünyası" jurnalı, № 1-2(35), 2008. s. 171-173.

[7] Xəlilov V.C. Süleyman Ələsgərov. B.: İşıq, 1989. 64s.

[8] Qafarova M.A. Yaradıcılıq (bəstəkar S.Ələsgərovun yaradıcılığı haqqında). // "Musiqi dünyası" jurnalı, № 2 (3), 2000. s. 143-145.; Qafarova M. A. Süleyman Ələsgərov – 80 // "Musiqi dünyası" jurnalı, № 1-2 (19), 2004. s. 155-158.; Bəstəkar Süleyman Ələsgərov və xalq çalğı alətləri orkestri. Dərs vəsaiti. B.: 2013.

[9] Seyidova Y.Ş. Kamança aləti Azərbaycan bəstəkarlarının yaradıcılığında. // "Musiqi dünyası" jurnalı, № 3-4(29), 2006. s. 109-110.; Seyidova Y. Süleyman Ələsgərovun kamança və xalq çalğı alətləri orkestri üçün «Tarantella»sı. // "Musiqi dünyası" jurnalı, № 1-2(31), 2007. s. 129-130.

[10] Təhmirazqızı S. Süleyman Ələsgərov xatirələrdə. // "Musiqi dünyası" jurnalı, № 1-2 (39), 2009. s.19-23.; Təhmirazqızı S. Tanınmış dirijor və pedaqoq Ağaverdi Paşayev – 60. // "Musiqi dünyası" jurnalı, № 4/45, 2010. s.178-182.

[11] Nəcəfova Z. Azərbaycan bəstəkarlarının yaradıcılığında XÇA orkestri üçün süita janrının təfsiri. Bakı, 2009.

**Tədqiqatın elmi yeniliyi.** Təqdim olunan dissertasiyanın elmi yeniliyi onunla bağlıdır ki, ilk dəfə olaraq, Azərbaycanda dirijorluq sənətinin inkişaf tarixi araşdırılaraq, dirijorluq sənətində üç istiqamətin yarandığı göstərilmişdir; opera-simfonik dirijorluğu, xor dirijorluğu, xalq çalğı alətləri orkestri dirijorluğu kimi sənət sahələrinin meydana gəlməsi, görkəmli dirijorların fəaliyyəti xarakterizə olunmuşdur. Ü.Hacıbəylinin, M.Maqomayevin opera-simfonik dirijoru, xor dirijoru və xalq çalğı alətləri orkestri dirijoru kimi fəaliyyəti səciyyələndirilmişdir.

Eyni zamanda, xalq çalğı alətləri orkestri üzrə dirijorların yaradıcılığına xüsusi olaraq diqqət yetirilmiş, bu istiqamətdə fəaliyyət göstərən dirijorların yaradıcılığı öyrənilmiş, xüsusilə xalq çalğı alətləri üzrə dirijorluq təliminin əsasları geniş tədqiq olunmuş, onun inkişaf perspektivləri qeyd olunmuşdur.

XX əsrdən XXI əsrin əvvəllərinə kimi, Azərbaycanda təşkil olunmuş xalq çalğı alətləri orkestrlərinin keçdiyi inkişaf yolu, onların nailiyyətləri, müasir musiqi mədəniyyətindəki rolu işıqlandırılmışdır.

Azərbaycanda xalq çalğı alətləri orkestrinin təşəkkülü prosesində repertuarın formalaşması məsələsi də irəli sürülmüşdür. Dissertasiyada Azərbaycan xalq çalğı alətləri orkestrinin repertuarı təhlil edilərək sistemləşdirilmişdir. Azərbaycan xalq çalğı alətləri orkestrinin fəaliyyətində müəyyən mərhələ təşkil edən əsərlər tədqiq olunmuş, onların janr xüsusiyyətləri, musiqi məzmununun əsas cəhətləri öyrənilmişdir. Bunun sayəsində Azərbaycan xalq çalğı alətləri orkestri ifaçılığının əsas istiqamətləri üzə çıxarılmış, milli musiqi ifaçılıq məktəbinin xüsusiyyətləri aşkarlanmışdır. Bütün bunlar dissertasiyanın elmi yeniliyinin əsas göstəriciləridir.

**Tədqiqatın məqsəd və vəzifələri.** Tədqiqatın əsas məqsədi Azərbaycan xalq çalğı alətləri orkestrinin inkişaf tarixinin mərhələlərini öyrənməkdən və dirijorluq sənətinin əsas xüsusiyyətlərini və inkişaf istiqamətlərini üzə çıxarmaqdan ibarətdir.

Bu məqsəddən irəli gələrək, bir sıra vəzifələrin həyata keçirilməsi vacibdir:

- Azərbaycan milli musiqi tarixinin öyrənilməsi və XX əsrdə dirijorluq sənətinin inkişaf yollarının araşdırılması;
- Azərbaycanda xalq çalğı alətləri ifaçılığının inkişaf mərhələlərinin, ansambl və orkestrlərin yaranması, xalq çalğı alətləri orkestri üzrə dirijorluq sənətinin təşəkkülü məsələlərinin öyrənilməsi;
- XX əsrdə Azərbaycan xalq çalğı alətləri ifaçılığında not sisteminin tətbiqinin, xalq çalğı alətləri orkestrinin formalaşmasının, musiqi təhsilin-

də yeni mərhələnin başlanğıcı kimi əhəmiyyətinin üzə çıxarılması;

- Xalq çalğı alətləri orkestrinin yaranmasında və inkişafında böyük rolu olmuş dirijorların yaradıcılığının öyrənilməsi;
- Xalq çalğı alətləri orkestri üzrə dirijorluq təliminin əsaslarının öyrənilməsi və milli musiqi ifaçılığının əsas xüsusiyyətlərinin səciyyələndirilməsi;
- XX əsrdə və XXI əsrin əvvəllərində yaranmış xalq çalğı alətləri orkestri üçün əsərlərin janr xüsusiyyətlərinin, musiqi dilinin təhlili, bədii ifaçılıq üslubunun araşdırılması və onların milli musiqi ifaçılığının inkişafındakı əhəmiyyətinin üzə çıxarılması.

Dissertasiyanın məqsəd və vəzifələri çərçivəsində bütün bu məsələlərin tədqiqi Azərbaycan xalq çalğı alətləri orkestri üzrə dirijorluq sənətinin əsas xüsusiyyətlərinin öyrənilməsinə yol açır.

**Tədqiqatın obyekti.** Dissertasiyada tədqiqat obyekti kimi Azərbaycanda xalq çalğı alətləri orkestrinin və dirijorluq sənətinin inkişaf yollarının öyrənilməsi əsas götürülmüşdür. Azərbaycan xalq çalğı alətləri ifaçılığı sənəti tarixində özünəməxsus yeri olan milli musiqi mədəniyyətinin görkəmli nümayəndələrinin yaradıcılığı, ifaçılıq və pedaqoji fəaliyyəti tədqiqatın obyektinə daxildir.

**Tədqiqatın predmetini** Azərbaycan bəstəkarlarının xalq çalğı alətləri orkestri üçün yazılmış əsərləri, onların janr xüsusiyyətləri, bədii və ifaçılıq keyfiyyətlərinin araşdırılması təşkil edir.

**Tədqiqatın materialı.** Dissertasiyada tədqiqatın materialı kimi Azərbaycan bəstəkarlarının xalq çalğı alətləri orkestri üçün yazılmış əsərlərindən, köçürmə və işləmələrdən – onların not və səsyazılarından, eləcə də dirijorluq sənətinin tarixi və təlimi ilə bağlı elmi tədqiqatlardan istifadə olunmuşdur.

**Tədqiqatın metodoloji əsası.** Dissertasiya üzərində iş prosesində tarixi araşdırma, deduksiya və müqayisəli təhlil metodlarından istifadə olunmuşdur. Azərbaycan musiqişünaslarının elmi tədqiqatları bizim elmi araşdırmalarımızın əsas mənbəyinə çevrilmişdir.

Dahi Azərbaycan bəstəkarı və musiqişünası, Azərbaycanda yeni milli musiqi mədəniyyətinin, milli bəstəkarlıq məktəbinin və musiqi təhsili sisteminin qurucusu Üzeyir Hacıbəylinin yaradıcılığı tədqiqatın əsas metodoloji bazasını təşkil edir. Ü.Hacıbəylinin davamçıları olan Azərbaycan bəstəkarlarının və musiqişünaslarının yaradıcılığı da mühüm mənbələrdir.

Bu baxımdan Azərbaycan musiqişünaslarının və musiqi xadimlərinin Azərbaycan musiqi sənəti tarixinə, bəstəkar yaradıcılığına, xalq çalğı alətləri orkestrinə, eləcə də dirijorluq təliminin əsaslarına dair tədqiqatları,

elmi baxışları bizim işimizin metodoloji bazasına çevrilmiş, onların elmi müddəalarına istinad olunmuşdur.

**Dissertasiyanın təcrübi əhəmiyyəti** ondan ibarətdir ki, tədqiqatın materiallarından və nəticələrindən Azərbaycan musiqi mədəniyyətinin öyrənilməsi ilə bağlı elmi tədqiqatlarda, ifaçılıq problemlərinin araşdırılmasında, xalq çalğı alərləti orkestri ifaçılığının və dirijorluq sənətinin tədrisi prosesində istifadə oluna bilər. Eləcə də Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetində, Azərbaycan Milli Konservatoriyasında xalq çalğı alətləri orkestri üzrə ifaçıların və dirijorların hazırlanmasında və xalq çalğı alətləri orkestri üzrə dirijorluq sənətinin tədrisində dissertasiyanın əsas müddəalarından və materiallarından istifadə məqsədəuyğun hesab olunur. Digər tərəfdən, dissertasiyanın ayrı-ayrı fəsillərində əhatə olunmuş materiallara «Musiqi əsərlərinin təhlili», «Xalq çalğı alətləri ifaçılığı sənətinin tarixi» fənlərinin tədrisində yardımçı vəsait kimi istinad oluna bilər.

**Dissertasiyanın aprobasiyası.** Dissertasiya işi Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin «Musiqişünaslıq» kafedrasında yerinə yetirilmiş və müzakirəyə verilmişdir. Dissertasiyanın mövzusu üzrə müəllifin bir sıra məqalələri nəşr olunmuş, konfranslarda çıxışları olmuş və tezisləri çap edilmişdir.

**Dissertasiyanın quruluşu.** Dissertasiya giriş, üç fəsil, onların daxilində yeddi yarımfəsil, nəticə və istifadə edilmiş ədəbiyyat siyahısından ibarətdir.

## DİSSERTASİYANIN ƏSAS MƏZMUNU

Dissertasiyanın **Giriş** bölməsində mövzunun aktuallığı əsaslandırılır, onun elmi işlənmə səviyyəsi, elmi yeniliyi açıqlanır, tədqiqatın məqsəd və vəzifələri, metodoloji əsası, təcrübi əhəmiyyəti müəyyənləşdirilir.

Dissertasiyanın **I fəsli "Azərbaycanda dirijorluq sənətinin inkişaf yolları"** adlanır, üç bölmədən ibarətdir**. 1.1. "Azərbaycanda dirijorluq sənətinin əsas istiqamətləri".** Azərbaycanda dirijorluq sənəti XX əsrin əvvəllərində təşəkkül tapmışdır. Məlum olduğu kimi, XIX əsrin sonu, XX əsrin əvvəllərində Azərbaycanın mədəni həyatında özünü göstərən yüksəliş sayəsində Azərbaycan musiqisində köklü dəyişikliklər meydana gəlmişdir. Bu dövrdə uzun əsrlər boyu şifahi ənənələr əsasında inkişaf etmiş Azərbaycan musiqi mədəniyyətinə Avropa musiqi ifaçılığı formalarının, yazılı ənənələrin daxil olması ilə milli bəstəkarlıq məktəbinin, milli ifaçılıq sahələrinin, musiqi təhsilinin bünövrəsi qoyulmuşdur.

Azərbaycanda dirijorluq sənəti də məhz bu dövrdən inkişaf etmişdir. İlk dirijorlar qeyri-azərbaycanlılar, Bakıya qastrola gələn və burada fəaliyyət göstərən opera və simfonik orkestr dirijorları, o cümlədən, xor dirijorları olmuşdur.

Azərbaycanda musiqi kollektivlərinin – musiqili teatrın, simfonik orkestrin, xor kapellasının, xalq çalğı alətləri orkestrinin bünövrəsinin məhz Üzeyir Hacıbəyli tərəfindən qoyulması, onun özünün bu kollektivlərdə təşkilati məsələlərlə yanaşı, bədii rəhbər və dirijor kimi fəaliyyəti bunu deməyə əsas verir. Üzeyir bəyin dirijorluq fəaliyyəti onun yaradıcılığına həsr olunan tədqiqatlarda musiqişünaslar tərəfindən qabardılmasa da, Ü.Hacıbəylinin həm opera teatrında öz əsərlərini idarə etməsi, həm xor kollektivinin, həm də xalq çalğı alətləri orkestrinin bədii rəhbəri olması onun dirijor kimi fəaliyyətindən danışmağa imkan verir.

1908-ci ildə ilk Azərbaycan milli operası – Üzeyir Hacıbəylinin "Leyli və Məcnun" operasının yaranması ilə musiqi ifaçılığının digər sahələri ilə yanaşı, dirijorluq sənətinin də inkişaf etdirilməsi Azərbaycan musiqisi üçün bir tələbata çevrildi. O dövrdə Azərbaycan opera və operetta tamaşalarını müşayiət etmək üçün Bakıda fəaliyyət göstərən dirijorların – Slavinski, Çernyaxovski və b. rəhbərliyi ilə simfonik orkestrlər dəvət olunmağa başlayır. "Leyli və Məcnun"un ilk tamaşasında məlum olduğu kimi, görkəmli yazıçı-dramaturq və mədəniyyət xadimi Əbdürrəhim və Haqverdiyev dirijorluq etmiş, sonrakı tamaşalardan başlayaraq, Üzeyir Hacıbəyli özü də operalara dirijorluq edirdi. Bu baxımdan, onun öz əsərlərinin tamaşalarını hazırlaması, ifaçılarla məşqlər aparması, musiqi partiyalarını onlara öyrətməsi, yəni artıq musiqi rəhbəri kimi fəaliyyəti onda dirijorluq bacarığını üzə çıxarmışdı.

Ü.Hacıbəylinin opera tamaşaları ilə yanaşı, simfonik orkestrə dirijorluq etməsi haqqında məlumata da o dövrün afişalarında rast gəlirik. Belə ki, 1911-ci ildə "Nicat" xeyriyyə cəmiyyətinin təşkil etdiyi böyük Azərbaycan dramaturqu Mirzə Fətəli Axundovun 100 illik yubileyi ilə əlaqədar tamaşa axşamının proqramında göstərilir ki, "antraktlarda müsəlman bəstəkarı Üzeyir Hacıbəyovun rəhbərliyi altında simfonik orkestr çalacaq"[12].

1914-cü ildən başlayaraq, "Hacıbəyov qardaşları müdiriyyəti" kimi tanınmış "Hacıbəyov qardaşlarının opera-operetta artistləri dəstəsi" müstəqil truppa kimi fəaliyyət göstərdiyi illərdə tamaşaya qoyulan opera və

[12] Dilbazi M.X. Bakının musiqi həyatı. (XIX əsrin ikinci yarısı – XX əsrin əvvəlləri). B.: 2007, s.230.

operettaların musiqi rəhbəri və dirijoru kimi Üzeyir bəy çox çalışmışdır.

Hətta 1918-1920-ci illərdə – Azərbaycan Xalq Cümhuriyyəti dövründə Ü.Hacıbəylinin, M.Maqomayevin, Z.Hacıbəyovun əsərləri tamaşaya qoyulmaqla yanaşı, konsertlərdə onların yazdıqları xor və simfonik orkestr üçün əsərlər də səsləndirilirdi. Bu konsertlərdə orkestrə ya Üzeyir Hacıbəyli özü, ya da Müslüm Maqomayev dirijorluq edirdi.

M.Maqomayevin bəstəkarlıq fəaliyyəti bir qədər gec başladığından, o, ilk növbədə dirijor kimi tanınmış və onun adı musiqi tarixinə ilk azərbaycanlı dirijor kimi daxil olmuşdur. M.Maqomayevin dirijorluq sahəsindəki fəaliyyəti əsasən, opera-simfonik dirijorluqla bağlı olmuşdur.

1920-ci illərdən Azərbaycan Dövlət Opera və Balet Teatrının (Mayılov teatrının binasında), Azərbaycan Dövlət Musiqili Komediya Teatrının (Tağıyev teatrının binasında) müstəqil olaraq fəaliyyət göstərməsi burada musiqi rəhbəri kimi dirijorun rolunu önə çəkdi. Həmin dövrlərdən də hər bir musiqili teatrın spesifikasına uyğun olaraq, dirijorlar yetişməyə başladı. Azərbaycan Dövlət Opera və Balet Teatrında Əfrasiyab Bədəlbəyli, Əşrəf Həsənov, Niyazi və başqaları, Azərbaycan Dövlət Musiqili Komediya Teatrında Süleyman Ələsgərov, Kamal Abbasov, Tale Qəniyev və b. dirijor kimi fəaliyyət göstərmişlər.

Azərbaycanda simfonik musiqinin inkişafı ilə simfonik orkestrin rolu artmış və böyük bir dirijorlar nəsli yetişmişdir. Azərbaycan Dövlət Simfonik Orkestri 1938-ci ildə Azərbaycan Dövlət Filarmoniyası nəzdində yaradılmışdır. 1944-cü ildə bu kollektivə Üzeyir Hacıbəylinin adı verilmişdir. Bu kollektivin təşkilində Üzeyir bəyin böyük rolu olmuşdur. Yarandığı ilk illərdə orkestrə Nikolay Anosov dirijorluq etmişdir. Sonradan uzun illər boyu orkestrin bədii rəhbəri və baş dirijoru Niyazi olmuşdur. Müxtəlif illərdə bir sıra tanınmış dirijorlar: N.Raxlin, A.Qauk, K.İvanov, L.Ginzburq, K.Zanderlinq, A.Yansons, Y.Fayer, O.Dmitriadi, A.Staseviç, M.Paverman, K.Eliasberq və başqaları orkestrə dəvət olunmuşlar. Həmçinin, azərbaycanlı dirijorlar: Ə.İsrafilzadə, Ç.Hacıbəyov, Ə.Həsənov, K.Abdullayev, Ə.Bədəlbəyli, F.Mustafayev və başqaları orkestrlə işləmişlər. Halhazırda orkestrin bədii rəhbəri və baş dirijoru R.Abdullayev olmaqla, Y.Adıgözəlov, F.Kərimov kimi dirijorlar səmərəli fəaliyyət göstərirlər.

Üzeyir bəyin dahiyanə uzaqgörənliyi və təşkilatçılıq bacarığı sayəsində yaranmış xor ifaçılığı sənətinin inkişafı yolları da əlamətdardır. 1936-cı ildə Ü.Hacıbəyli Azərbaycan Dövlət Filarmoniyasının nəzdində Azərbaycan Dövlət xorunu təşkil etməyə müvəffəq olmuşdur. Sonrakı il-

lərdə də Azərbaycanda müxtəlif xor kollektivləri meydana gəlmişdir. Azərbaycan Dövlət Xor Kapellası, Azərbaycan Dövlət Radio və Televiziyasının nəzdində fəaliyyət göstərən xor kollektivi bu qəbildəndir.

Xor dirijorluğu sahəsində Üzeyir Hacıbəylidən sonra Cahangir Cahangirov, Nicat Məlikov, Eduard Novruzov, Nurəddin Mərdanov, Ləman Atakişiyeva, Zərifə İsmayılova, Gülbacı İmanova və digər görkəmli xor dirijorları yetişdi.

1931-ci ildə təşkil olunan Azərbaycan xalq çalğı alətləri orkestrinin ilk dirijoru Üzeyir Hacıbəyli idi. Əsasən tar, kamança, balaban, dəf, nağara və başqa alətlərdən təşkil olunmuş xalq çalğı alətləri orkestri, eyni zamanda, xalq çalğı alətləri ifaçılığında və dirijorluq sənətində yeni bir istiqamətin – xalq çalğı alətləri orkestri üzrə dirijorluğun meydana gəlməsinə təkan verdi.

Azərbaycanın görkəmli bəstəkarı S.Rüstəmov Ü.Hacıbəylinin tələbəsi və not sistemini mənimsəyən ilk tar ifaçılarından biri olaraq, xalq çalğı alətləri orkestrinin konsertmeysteri (birinci tar) və dirijor köməkçisi, daha sonra isə baş dirijoru kimi uzun illər boyu bu orkestrdə fəaliyyət göstərmiş, eyni zamanda, xalq çalğı alətləri orkestri dirijorlarını yetişdirmişdir. Bu sahədə Süleyman Ələsgərov, Hacı Xanməmmədov, Nəriman Əzimov, Ağaverdi Paşayev və digər dirijorların adı xüsusi qeyd edilməlidir.

Ümumiyyətlə, Azərbaycanda dirijorluq sənətinin bütün inkişaf istiqamətlərinin səciyyələndirilməsi geniş və çoxcəhətli bir mövzudur. Burada Azərbaycan dirijorluq sənətinin müxtəlif sahələrinin meydana gəlməsi və inkişafı baxımından Üzeyir Hacıbəylinin böyük missiyasının xarakterizə edilməsi önə çıxır. Ü.Hacıbəylinin dirijorluq fəaliyyəti özündə bir neçə sahəni – opera-simfonik, xalq çalğı alətləri orkestri və xor dirijorluğu sahələrini birləşdirirdi. Bu baxımdan Üzeyir Hacıbəylinin fəaliyyətini Azərbaycanda bütün adı çəkilən sahələrdə ilk addım hesab etmək olar. Müasir dövrdə Azərbaycanda opera, xor, simfonik və xalq çalğı alətləri orkestri dirijorluğu müstəqil sahələr kimi inkişaf etdirilərək, yüksək səviyyəli dirijorlar yetişmişdir.

**1.2. "Xalq çalğı alətləri orkestri üzrə dirijorluq sənətinin formalaşması".** Azərbaycan xalq çalğı alətləri orkestrinin yaranması ilə xalq çalğı alətləri orkestri üzrə dirijorluq sənətinin formalaşması prosesi genişləndi. Azərbaycan musiqi mədəniyyətində bu sahə özünəməxsus inkişaf yolu keçmişdir.

Artıq qeyd etdiyimiz kimi, xalq çalğı alətləri orkestrinin ilk dirijoru

Üzeyir Hacıbəyli olmuşdur. O, özü bu sahədə ən böyük davamçısını – Səid Rüstəmovu yetişdirmiş və xalq çalğı alətləri orkestrinin dirijorluğu vəzifəsini ona həvalə etmişdir.

Azərbaycan Xalq çalğı alətləri orkestrində Səid Rüstəmov, Süleyman Ələsgərov, Qılman Salahov, Adil Gəray, Hacı Xanməmmədov, Nəriman Əzimov, Faiq Sadıxov, Ağaverdi Paşayev kimi dirijorlar yetişmiş və püxtələşmişdir. Onlardan bəzilərinin fəaliyyətini nəzərdən keçirək.

Azərbaycan xalq çalğı alətləri orkestrinin inkişaf tarixinin mühüm bir mərhələsi Azərbaycan Respublikasının xalq artisti Səid Rüstəmovun adı ilə bağlıdır. Xalq çalğı alətləri orkestrinin təşəkküllündə və inkişafında Səid Rüstəmov həm ifaçı, həm bədii rəhbər və dirijor, həm də bəstəkar kimi iştirak etmişdir. S.Rüstəmovun çoxsahəli fəaliyyətinin müxtəlif tərəflərinin öyrənilməsi baxımından, onun xalq çalğı alətləri orkestrinin rəhbəri və dirijoru kimi fəaliyyətinin təhlili, həmçinin, onun bu kollektiv üçün yazdığı əsərlərinin musiqi dilinin özəlliklərinin və interpretasiya məsələlərinin tədqiqi vacibdir.

1935-1973-cü illər ərzində orkestrin bədii rəhbəri və baş dirijoru olmuş S.Rüstəmov kollektivin təkmilləşməsində, onun Ümumittifaq səviyyədə tanınmasında böyük rol oynamışdır. S.Rüstəmovun rəhbərliyi altında orkestr tükənməz bədii və texniki imkanları ilə seçilən bir kollektivə çevrilmişdir. S.Rüstəmovun bir bəstəkar kimi orkestrin inkişafında böyük rolu olmuşdur. O, əsərlərinin əksəriyyətini xalq çalğı alətləri orkestri üçün yazmışdır. Bəstəkarın "Bayatı-Kürd fantaziyası", "Rəqs süitası", Tar ilə xalq çalğı alətləri orkestri üçün konserti, Xor ilə xalq çalğı alətləri orkestri üçün "Azərbaycan süitası" və s. əsərlər orkestrin repertuarında önəmli yer tutur.

Azərbaycan Respublikasının xalq artisti Süleyman Ələsgərovun bəstəkar, dirijor, pedaqoq və ictimai xadim kimi fəaliyyəti və yaradıcılığı Azərbaycan xalq çalğı alətləri orkestri ilə sıx bağlı olmuşdur. Belə ki, o, həm çalışdığı musiqi təhsili ocaqlarında – Azərbaycan Dövlət Konservatoriyasında və A.Zeynallı adına orta ixtisas musiqi məktəbində xalq çalğı alətləri orkestrinin təşkili ilə məşğul olmuş, həm xalq çalğı alətləri orkestri üzrə dirijor kadrlar yetişdirmiş, həm bu fənn üzrə tədris proqramlarını tərtib etmiş, həm orkestrdə dirijor kimi çalışmış, həm də xalq çalğı alətləri orkestri üçün orijinal əsərlər yazmaqla yanaşı, xarici və yerli bəstəkarların əsərlərindən köçürmələrlə və işləmələrlə orkestrin repertuarını zənginləşdirmişdir. Xalq çalğı alətləri orkestrinin inkişafında Süleyman Ələsgərovun bəstəkar və dirijor kimi böyük rolu olmuşdur, orkestrin daimi reper-

tuarında onun əsərləri xüsusi yer tutur.

Hacı Xanməmmədovun yaradıcılıq tərcümeyi-halında Azərbaycan televiziyası və radiosunun xalq çalğı alətləri orkestrindəki fəaliyyəti, bu kollektivlə möhkəm təmasda olması da diqqətəlayiqdir. Orkestrin yaranmasından indiyə qədər H.Xanməmmədov onun formalaşmasında və püxtələşməsində fəal iştirak etmişdir. Əvvəllər orkestrdə tar çalan H.Xanməmmədov sonralar onun dirijoru vəzifəsinə irəli çəkilir. Məhz bununla əlaqədar bəstəkarın yaradıcılığının çox hissəsini bu orkestr üçün yazılmış əsərlər əhatə edir. Hacı Xanməmmədov istər Qərbi Avropa və rus klassiklərinin, istərsə də Azərbaycan bəstəkarlarının əsərlərini eyni ilhamla, sənətkarlıqla təfsir etməyə müvəffəq olmuşdur.

Azərbaycanın xalq artisti Nəriman Əzimov 1974-cü ildən bu günə kimi Azərbaycan Teleradiosunun Xalq çalğı alətləri orkestrinin bədii rəhbəri və baş dirijoru vəzifəsində çalışır. Azərbaycan Dövlət Konservatoriyasının məzunu olmuş N.Əzimov uzun müddət Azərbaycan Xalq Çalğı Alətləri orkestrində ikinci dirijor vəzifəsində çalışmış, daha sonra S.Rüstəmovu əvəz etmişdir. N.Əzimov bir dirijor kimi, rəhbərlik etdiyi kollektivin repertuarını genişləndirməyə və zənginləşdirməyə səy göstərmişdir. S.Rüstəmov adına Azərbaycan Xalq Çalğı Alətləri Orkestrinin ikinci dirijoru vəzifəsində çalışan Faiq Sadıxov orkestrlə iş üzrə böyük təcrübəyə malik bir dirijordur.

Azərbaycanın xalq artisti, dirijor Ağaverdi Paşayev 2000-ci ildən Azərbaycan Dövlət Filarmoniyasının nəzdində Azərbaycan Dövlət Xalq Çalğı Alətləri Orkestrinin bədii rəhbəri və baş dirijorudur. Bu kollektivin təşkilində və püxtələşməsində Ağaverdi Paşayevin əməyini xüsusi qeyd etmək lazımdır. 1979-cu ildən A.Paşayev Azərbaycan Dövlət Konservatoriyasına müəllim kimi dəvət olunur, "Azərbaycan xalq çalğı alətləri üzrə orkestrləşdirmə və dirijorluq" kafedrasında çalışır. Həmçinin o, Ü.Hacıbəyli adına Bakı Musiqi Akademiyasının tələbə xalq çalğı alətləri orkestrinə rəhbərlik etmişdir. Bu müddətdə tələbə orkestri öz ifaçılıq qabiliyyətini püxtələşdirmiş, yeni-yeni gənc dirijor kadrları üçün yaradıcılıq laboratoriyası olmuşdur. A.Paşayevin hal-hazırda rəhbərlik etdiyi Azərbaycan Dövlət xalq çalğı alətləri orkestrinin üzvlərinin böyük əksəriyyəti onun öz yetişdirdiyi tələbələrdən ibarətdir. 2002-ci ildən Azərbaycan Milli Konservatoriyasının Xalq Çalğı Alətləri orkestrləşməsi və dirijorluğu kafedrasının müdiri vəzifəsində çalışır. Eyni zamanda, A.Paşayev Ü.Hacıbəylinin yadigarı olan indiki F.Əmirov adına Azərbaycan Dövlət mahnı və rəqs an-

samblının bədii rəhbəridir. Beləliklə, Azərbaycanda 1930-cu illərdən sonra xalq çalğı alətləri orkestri yaranmaqla, xalq çalğı alətləri orkestri üzrə dirijorluq təşəkkül tapmışdır. Bu sahədə görkəmli dirijorlar yetişmişdir.

**1.3. "Azərbaycan xalq çalğı alətləri orkestri üzrə dirijorluğun əsasları".** "Xalq çalğı alətləri orkestri ifaçılığı" və "Dirijorluq" fənni təcrübi əhəmiyyətli fənn kimi ali və orta ixtisas musiqi məktəblərinin xalq çalğı alətləri ifaçılığı fakültələrində əsas fənlərdəndir. Həmin fənlərin tədris proqramlarının əsasını Azərbaycan bəstəkarlarının xalq çalğı alətləri orkestri üçün yazılmış əsərləri, işləmə və köçürmələr təşkil edir.

Xalq çalğı alətləri ifaçılarına orkestrdə işləmək bacarığını aşılamaqda yanaşı, onlara dirijorluq sənətinin əsasları haqqında da bilgilər vermək vacibdir. Bu bölmədə xalq çalğı alətləri orkestri üzrə dirijorluğun əsasları ilə bağlı bəzi cəhətləri təqdim edirik. Bunlar dirijorluq sənətinin ümumi əsasları ilə bağlı olub, Azərbaycan xalq çalğı alətləri orkestri dirijorlarının fəaliyyətində özünəməxsus cizgilər kəsb edən cəhətlərdir. Bütün bunların öyrənilməsi gənc dirijorlar üçün çox önəmlidir, çünki, hələ əsl musiqiçi kimi formalaşma prosesində olan gənc lazımi qədər üzərində işləməli, mütləq əsəri diqqətlə dinləməli və mövcud ənənələrə riayət etməlidir. Yalnız bu vaxt dirijor əsərin xarakterini anlamağa, nəticədə öz ifaçılıq təfsirini yaratmağa nail olur. Beləliklə, dirijorluq fəaliyyətinin əsas cəhətlərinin xarakterizə olunması bu sənətin mükəmməl şəkildə mənimsənilməsinə və bu sənətə yiyələnən hər bir şəxsin simasında özünəməxsus keyfiyyətlər kəsb etməsinə imkan verir.

Dissertasiyanın **II fəsli "Azərbaycan xalq çalğı alətləri orkestrlərinin yaradıcılıq yolu və repertuarı"** adlanır. Üç bölmədən ibarət olan bu fəslin birinci bölməsi **2.1. "Musiqişünaslıq tədqiqatlarında Azərbaycan xalq çalğı alətləri orkestrinin öyrənilməsi məsələləri"** ilə bağlıdır. Azərbaycan xalq çalğı alətləri orkestrinin tarixi bilavasitə milli musiqi alətlərimizin inkişaf yolu ilə bağlı olmuşdur. Xalq çalğı alətləri orkestrinin təşəkkülü və inkişafı tarixinin mərhələləri bir sıra tədqiqatlarda öz əksini tapmışdır. Bu baxımdan alətşünaslıqla bağlı əsərlər xüsusi əhəmiyyətə malikdir və biz həmin əsərlərə əsaslanaraq, xalq çalğı alətləri orkestrinin yaradılması və tərkibinin formalaşması ilə bağlı bir sıra cəhətlərə diqqət yetirmişik.

Musiqi alətlərinə həsr olunmuş tədqiqatlarda xalq çalğı alətlərinin təsnifatı və bədii-texniki imkanlarının şərhi məsələləri diqqəti cəlb edir. Bütün bunlar xalq çalğı alətləri orkestrinin bədii-texniki ifaçılıq imkanlarının araşdırılmasında və xalq çalğı alətləri orkestri üzrə alətləşdirmənin

və dirijorluğun əsaslarının öyrənilməsində mühüm əhəmiyyətə malikdir.

XX əsr Azərbaycan musiqişünaslığında ilk dəfə Üzeyir Hacıbəyli xalq çalğı alətlərini xarakterizə etmiş, onlardan orkestrdə istifadə yollarını göstərmiş və fikirlərini öz yaradıcılığı ilə təsdiq etmişdir. Xalq çalğı alətləri orkestrini yaradarkən də Ü.Hacıbəyli bütün alətlərin ifaçılıq imkanlarını nəzərə almış və orkestrləşdirmədə nümayiş etdirmişdir. Onun bütün bu qiymətli tövsiyələri Azərbaycan bəstəkarlarının yaradıcılığında orkestrləşdirmə prinsiplərinin formalaşmasında mühüm əhəmiyyət kəsb edir.

Kərim Kərimovun "Azərbaycan xalq çalğı alətləri orkestri" (Bakı, 1959) əsəri, Oqtay Quliyevin "Azərbaycan xalq çalğı alətləri orkestri" (Bakı, 1988) monoqrafiyası Azərbaycan Dövlət Televiziya və Radio Verilişləri Şirkətinin nəzdindəki S.Rüstəmov adına xalq çalğı alətləri orkestrinin yaradıcılıq yolundan və inkişaf mərhələlərindən, ifaçılıq fəaliyyətindən, Azərbaycan professional musiqisində tutduğu mövqeyindən və respublikanın musiqi həyatındakı rolundan bəhs edilir.

Əvəz Rəhmətovun "Azərbaycan xalq çalğı alətləri və onların orkestrdə yeri" (Bakı, 1980) monoqrafiyasında müəllif ilk xalq çalğı alətləri orkestrinin yaradıcılıq yolunu şərh etməklə yanaşı, göstərir ki, respublikamızda fəaliyyət göstərən mövcud xalq çalğı alətləri orkestri iki növə ayrılır: geniş tərkibli (40-50 nəfər) və kiçik tərkibli (18-20 nəfər). Geniş tərkibli orkestrlər bütün ali və orta ixtisas musiqi məktəblərində fəaliyyət göstərirsə, kiçik tərkibli orkestrlər isə mədəniyyət saraylarında, institut və texnikumlarda istifadə olunur.

Səadət Abdullayevanın "Azərbaycan xalq çalğı alətləri" (Bakı, 2002) monoqrafiyasında çalğı alətlərinin texniki və bədii imkanları, yəni onların kökü, diapazonu, ştrixləri, tembrləri, registrləri, pozisiyaları, applikaturaları, çalınma tərzləri açıqlanır. Onu da qeyd etmək lazımdır ki, bütün bunlar musiqişünaslıqda ilk dəfə olaraq sistemli şəkildə araşdırılmışdır.

Süleyman Ələsgərovun və Səadət Abdullayevanın "Azərbaycan xalq çalğı alətləri və orkestrləşdirmə" dərsliyi orkestrləşdirmə və dirijorluğun tədrisində çox əhəmiyyətlidir. Burada nəfəs, zərb, kaman, mizrabla çalınan alətlər qrupu üçün orkestrləşdirmənin və müşayiəti orkestrləşdirmənin, simfonik partituradan köçürmənin xüsusiyyətlərindən bəhs olunur.

Azərbaycan musiqi elmində xalq çalğı alətlərinin öyrənilməsi və sistemləşdirilməsi XX əsrin əvvəllərindən təkamülə uğrayır. Əgər əsrin birinci yarısında xalq çalğı alətləri üç qrupa bölünərək, 12 alət növünü özündə cəmləşdirirdisə, sonrakı illərdə bəzi qədim alətlər rekonstruksiya-

ya uğrayır, təkmilləşir, mövcud xalq çalğı alətlərinin ölçü və səslənmə xüsusiyyətləri ilə fərqlənən yeni növləri meydana gəlir, həmin alətlərdən artıq həm solo, həm xalq çalğı alətləri ansamblı və orkestrlərində istifadə edilməyə başlayır.

**2.2. "Azərbaycan Televiziya və Radiosu Səid Rüstəmov adına Xalq çalğı alətləri orkestri".** Azərbaycanda notlu xalq çalğı alətləri orkestrinin yaradılması milli musiqi ifaçılığında yeni mərhələnin başlanğıcı oldu. Biz Ü.Hacıbəylinin və M.Maqomayevin bu sahədəki birgə fəaliyyətini işıqlandırmağa çalışmışıq. Elmi ədəbiyyatdan məlumdur ki, Ü.Hacıbəyli notla çalan xalq çalğı alətləri orkestrinin yaradılması ilə bağlı məqsədyönlü iş aparmışdır. M.Maqomayev isə bu işdə ona yaxından kömək etmiş, orkestrin professional bir kollektiv kimi fəaliyyətə başlaması üçün təşkilati məsələlərlə yaxından məşğul olmuşdur.

Azərbaycan xalq çalğı alətləri orkestrinin təşəkkülündə Ü.Hacıbəylini əvəz etmiş, orkestrin ilk konsertmeysteri – tarzən, dirijor və bəstəkar Səid Rüstəmovun da böyük rolu olmuşdur. Kollektivin fəaliyyətinin böyük bir mərhələsi onun adı ilə bağlıdır.

Kollektivin keçdiyi təkamül yoluna nəzər saldıqda, 1940-cı illərin sonu, 1950-ci illərin başlanğıcını onun püxtələşmə dövrü hesab etmək olar. Xalq çalğı alətləri orkestri bu dövrdə bir çox önəmli tədbirlərdə iştirak edərək, özünün yüksək professionallığını, zəngin bədii potensialını nümayiş etdirmişdir. Belə ki, 1949-cu ildə kollektiv Moskvada keçirilən xalq çalğı alətləri orkestrlərinin ümumittifaq müsabiqəsində böyük uğurla çıxış etmişdir.

1960-cı illəri xalq çalğı alətləri orkestrinin inkişafında keyfiyyətcə yeni mərhələ adlandırmaq olar. Bu dövrdə ifaçılıq sənətinin yüksək zirvələrini fəth etmiş orkestr keçmiş sovet məkanının ən müxtəlif şəhərlərində son dərəcə zəngin proqramları ilə çıxış etmişdir: orkestrin 1965-ci ildə Moskvada, 1967-ci ildə isə Moskvada keçirilən Azərbaycan ədəbiyyatı və incəsənəti həftəsində müvəffəqiyyəti xüsusi qeyd olunmalıdır. Moskvada keçən incəsənət ongünlüyündəki uğurlu çıxışlarına görə 1960-cı ildə xalq çalğı alətləri orkestri "əməkdar kollektiv" kimi fəxri ada layiq görülmüşdür.

Səid Rüstəmov 1973-cü ilə kimi Azərbaycan Teleradiosunun nəzdində fəaliyyət göstərən Azərbaycan xalq çalğı alətləri orkestrinə rəhbərlik etmişdir. S.Rüstəmovun vəfatından (1984) sonra isə bu kollektivə onun adı verilmişdir. S.Rüstəmovdan sonra onu bu vəzifədə dirijor Nəriman Əzimov əvəz etmişdir. Bu günə kimi də Səid Rüstəmov adına Azərbaycan Televiziyası və Radiosu Qapalı Səhmdar Cəmiyyətinin Azərbaycan xalq

çalğı alətləri orkestrinin bədii rəhbəri və baş dirijoru xalq artisti Nəriman Əzimovdur. N.Əzimovun orkestrə rəhbərliyi dövründə də kollektiv əvvəlki illərdə öz ifaçılıq ənənələrini və üslubunu saxlamışdır.

**2.3. "Azərbaycan Dövlət Filarmoniyası nəzdində Fikrət Əmirov adına Azərbaycan Dövlət xalq çalğı alətləri orkestri".** S.Rüstəmov adına Azərbaycan xalq çalğı alətləri orkestri ilə yanaşı, respublikanın musiqi təhsili ocaqlarında tələbələrdən ibarət olan bu kimi orkestrlər fəaliyyət göstərir. Bununla yanaşı, ölkəmizin musiqi mədəniyyətində önəmli rol oynayan ikinci xalq çalğı alətləri orkestri də rəsmi şəkildə fəaliyyət göstərir ki, bu da Azərbaycan Dövlət Filarmoniyasının Xalq çalğı alətləri orkestridir.

Bu orkestrin yaranma tarixi də maraqlıdır. Hələ 1940-cı illərdə M.Maqomayev adına Azərbaycan Dövlət Filarmoniyasında da S.Rüstəmovun rəhbərliyilə Dövlət xalq çalğı alətləri orkestri yaranmışdı, lakin müəyyən səbəblərdən bu orkestr bir neçə ildən sonra bağlanmışdı.

1999-cu ildə isə Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin təşəbbüsü ilə M.Maqomayev adına Azərbaycan Dövlət Filarmoniyasında Dövlət xalq çalğı alətləri yenidən təşkil olunmuşdur. Azərbaycan Dövlət xalq çalğı alətləri orkestrinin bədii rəhbəri və baş dirijoru, xalq artisti, professor Ağaverdi Paşayevdir.

Azərbaycan Dövlət xalq çalğı alətləri orkestri öz repertuarını artıq uzun illər S.Rüstəmov adına xalq çalğı alətləri orkestrinin repertuarından alınmış əsərlərlə zənginləşdirməklə yanaşı, eyni zamanda, bəstəkarlarımıza yeni əsərlər yazılmasını da sifariş vermişdir. Vasif Adıgözəlov, Oqtay Kazımi, Azər Dadaşov, Nazim Quliyev, Vasif Allahverdiyev kimi müxtəlif nəsillərdən olan bəstəkarlar yeni iri həcmli əsərlərini yazıb orkestrə təqdim etmişlər.

Orkestr beynəlxalq festivallarda da çıxış edərək uğurlar qazanmışdır. 2004 və 2005 illərdə İranın Tehran şəhərində keçirilən XIX və XX "Fəcr" beynəlxalq musiqi festivallarında 2 dəfə ən yüksək "Qızıl Çəng" mükafatına layiq görülmüşdür. 2005-ci ildə ABŞ-ın səsyazma şirkəti tərəfindən orkestrin ifası kompakt diskə köçürülmüşdür.

Kollektivin nəzdində Uşaq-gənclər xalq çalğı alətləri orkestri 2009-cu ildə A.Paşayevin rəhbərliyi altında yaradılmışdır. Bu orkestrə müsabiqə yolu ilə Bakı şəhərinin 11 illik musiqi məktəbinin şagirdləri arasından seçilmişdir. Orkestrin dirijoru və bədii rəhbəri mahir tarzən kimi tanınmış beynəlxalq müsabiqələr laureatı Sahib Paşazadədir.

Dissertasiyanın **III fəsli "Azərbaycan xalq çalğı alətləri orkestrinin repertuarı və əsərlərin təfsiri məsələləri"** adlanır. Bu fəsil iki bölmədən

ibarətdir. **3.1. “Xalq çalğı alətləri orkestri üçün işləmələr”** nəzərdən keçirilir. Xalq çalğı alətləri orkestrinin repertuarının tərtib olunması məsələsi orkestrin yarandığı vaxtlardan diqqət mərkəzində olmuşdur. Burada orkestrin repertuarı məsələsindən danışdıqda, ümumiyyətlə xalq çalğı alətləri orkestri nəzərdə tutulur. Artıq qeyd etdiyimiz kimi, respublikada konsert fəaliyyəti ilə məşğul olan Azərbaycan Televiziyası və Radiosu nəzdində S.Rüstəmov adına Xalq çalğı alətləri orkestri, M.Maqomayev adına Azərbaycan Dövlət Filarmoniyasının nəzdində Xalq çalğı alətləri orkestri, həmçinin, tədrislə əlaqədar olaraq, ali musiqi məktəblərində - Azərbaycan Milli Konservatoriyasında və Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetində, eləcə də musiqi kolleclərində və orta ixtisas musiqi məktəblərində fəaliyyət göstərən xalq çalğı alətləri orkestrləri mövcuddur.

Bütün bu orkestrlərin daimi repertuarının əsasını musiqimizin klassikasına çevrilmiş əsərlər təşkil edir və bu da artıq ənənəvi hal almışdır. Bununla belə hər bir orkestrdə dirijorun məqsədindən asılı olaraq, yeni əsərlər və ya işləmələr repertuara daxil edilir ki, bu da orkestrlərin repertuarını bir-birindən fərqləndirir.

İlk növbədə, xalq çalğı alətləri orkestrinin repertuarında Azərbaycan xalq mahnı və rəqslərinin orkestr üçün işləmələrini qeyd etməliyik. Lakin janr xüsusiyyətlərinə görə bunlar fərqlənirlər, yəni vokal və instrumental musiqi janrlarına aiddirlər, bu səbəbdən də onların orkestrləşdirilmə prinsipləri müxtəlifdir.

Xalq çalğı alətləri orkestrinin ilkin repertuarı üçün bəstəkarlar tərəfindən xalq mahnı və rəqslərinin işləmələri yaradılmağa başlanmışdır. Üzeyir Hacıbəyli, Müslüm Maqomayev, Səid Rüstəmov, Qılman Salahov və başqaları bu sahədə səmərəli işləmişlər.

Xalq çalğı alətləri orkestrinin müşayiətilə zərbi muğamların və muğam dəstgahlarının ifa olunması prinsipi əsasən muğam üçlüyündə olduğu kimi saxlanılır. Xanəndə partiyası olduğu kimi qalır; tar, kamança və qavaldan ibarət ansambl partiyası əsasında isə orkestr partiturası tərtib olunur.

Xalq çalğı alətləri orkestrinin repertuarında müəyyən yeri kamera-instrumental əsərlərin, məsələn, fortepiano əsərlərinin xalq çalğı alətləri orkestri üçün işləmələri tutur. Bu baxımdan xarici ölkə bəstəkarlarının əsərlərinin, məsələn, F.Şubertin “Vals”, “Serenada”, M.Musorqskinin “Köhnə qala” kimi pyeslərinin xalq çalğı alətləri üçün işləmələrini qeyd etmək olar. Bu kimi nümunələrin orkestrləşdirilməsi xüsusi hazırlıq və vərdişlərlə bağlı olub, bəstəkarların üslubunun saxlanılmasına və əsərin

ümumi əhval-ruhiyyəsinin qorunmasına həssas münasibət tələb edir. Bu təcrübədən simfonik orkestrləşdirmədə də istifadə olunur.

Xalq çalğı alətləri orkestrinin repertuarında xüsusi yeri simfonik orkestr üçün əsərlərin köçürmələri təşkil edir. Orkestrin təşəkkülü dövründə geniş tətbiq olunan bu təcrübə sayəsində repertuar dünya musiqisinin klassik əsərləri ilə zənginləşmişdir. Simfonik əsərlərin xalq çalğı alətləri orkestri üçün köçürmələri bir ənənə halını alaraq, bu gün də davam etdirilir.

Maraqlı cəhətlərdən biri də odur ki, M.Maqomayevin "Radio-marşı", "Azərbaycan çöllərində" əsərləri simfonik orkestr üçün yazılmış və sonradan S.Rüstəmov tərəfindən xalq çalğı alətləri orkestri üçün işlənmişdir, bu əsərlər orkestrin daimi repertuarında layiqli yer tutmuşdur. Xüsusilə "Radio-marşı"nın məhz xalq çalğı alətləri orkestrinin ifasında səsləndirilməsi Azərbaycan radiosunun özünəməxsus musiqi rəmzinə çevrilmişdir.

Simfonik əsərlərin xalq çalğı alətləri orkestri üçün işlənməsində nəzərə almaq lazımdır ki, muğam ifaçılığında istifadə olunan tar, kamança, qaval alətləri xalq çalğı alətləri orkestrinin də əsasını təşkil edir, lakin artıq orkestrdə onların ifaçılıq keyfiyyəti yeni çalarlar kəsb edir və ifaçılıq üslubu və bədii-texniki imkanları baxımından onlar simfonik orkestr alətlərinə xas olan ştrixləri əks etdirir.

Xalq çalğı alətləri orkestrinin ifaçılıq təcrübəsində daha iri həcmli vokal-simfonik əsərlərə də diqqət yetirilir. Bu baxımdan kantata janrında – solistlər, xor və simfonik orkestr üçün yazılmış əsərlərin xalq çalğı alətləri orkestri üçün işlənməsini nümunə göstərə bilərik. Məsələn, Q.Qarayevin "Xoşbəxtlik mahnısı" kantatası S.Ələsgərov tərəfindən xalq çalğı alətləri orkestri üçün işlənilmişdir. Bu partitura S.Ələsgərovun özü tərəfindən bizə təqdim olunmuşdur. Burada əsərin üslubu, alətlərin qarşılıqlı səslənmə xüsusiyyətləri, tembr cəhətdən uzlaşdırmalar simfonik partituraya yaxın planda həll olunmuşdur.

Q.Qarayevin partiturasının özünəməxsus cəhətlərindən biri də odur ki, burada tar partiyasından (bir tar) istifadə edilmişdir. Simfonik orkestrin tərkibinə tar partiyası daxil edilməsi yeni tembr boyası ilə səslənməni zənginləşdirir və milli kolorit aşılayır. Lakin xalq çalğı alətləri orkestrində tar əsas aparıcı alətdir və orkestrin özəyini təmin edən qrup halında çıxış edir. Buna görə də alətləşdirmədə və partituranın tərtibində fərqli cəhətlər əmələ gəlir. Beləliklə, xalq çalğı alətləri orkestrinin repertuarı müxtəlif xarakterli işləmələrlə zəngindir. Müxtəlif bəstəkarlar tərəfindən tərtib olunmuş bu işləmələr əsasən şifahi ənənəli musiqi nümunələrini, yerli və

xarici bəstəkarların klassik əsərlərini əhatə edir.

**3.2. “Xalq çalğı alətləri orkestri üçün yazılmış orijinal əsərlər”.** Xalq çalğı alətləri orkestrinin repertuarının mühüm hissəsini Azərbaycan bəstəkarlarının xalq çalğı alətləri orkestri üçün yazılmış orijinal əsərləri təşkil edir. Burada kiçik həcmli pyeslərdən tutmuş, iri formalı instrumental konsertlərə kimi ən müxtəlif əsərlər təmsil olunmuşdur.

Orkestrin repertuarına Ü.Hacıbəylinin xalq çalğı alətləri orkestri üçün fantaziyaları ilk bəstəkar əsərləri kimi daxil olmuşdur. Bu əsərlər digər Azərbaycan bəstəkarlarının da fantaziyalarının, eləcə də başqa janrlarda əsərlərinin yaranmasına təkan vermişdir. I - “Çahargah” və II - “Şur” fantaziyaları xalq çalğı alətləri orkestri böyük imkanlar açmışdır. Bəstəkar bu fantaziyalarında xalq musiqisinin zəngin intonasiyalarından, ritmik xüsusiyyətlərindən, məqam kökündən geniş istifadə etmişdir. Hər iki fantaziya bu günə qədər orkestrin repertuarında özünə möhkəm yer tutmaqdadır.

Fantaziyalar Azərbaycanda xalq çalğı alətləri üçün süita, konsert və digər musiqi janrlarında əsərlərin yaranmasına yol açdı, S.Rüstəmovun, F.Əmirovun, S.Ələsgərovun, H.Xanməmmədovun və başqa bəstəkarların əsərləri bunun bariz nümunəsidir. Həmçinin, Ü.Hacıbəylinin fantaziyaları muğamdan orijinallıqla istifadə prinsiplərini də ön plana çəkdi ki, bunun davamını S.Rüstəmovun “Bayatı-kürd” fantaziyasında, Ə.Abasovun “Hicaza bənzər”, S.Ələsgərovun Fortepiano və XÇA orkestri üçün “Fantaziya” və s. əsərlərdə görürük.

Azərbaycan bəstəkarları xalq çalğı alətləri orkestri üçün miniatür pyeslər, süitalar, instrumental konsertlər, simfoniyetta kimi müxtəlif həcmli və janrlı əsərlər yazmışlar.

Solo alətlər və xalq çalğı alətləri orkestri üçün kiçik formalı orijinal əsərlərin meydana gəlməsi də əlamətdardır. Bu baxımdan Süleyman Ələsgərovun tar və xalq çalğı alətləri orkestri üçün “Daimi hərəkət”, kamança və xalq çalğı alətləri orkestri üçün “Tarantella”, “Skertso”, balaban və xalq çalğı alətləri orkestri üçün “Xəyala dalarkən”, qanun və xalq çalğı alətləri orkestri üçün “Poema”, saz ilə xalq çalğı alətləri orkestri üçün “Aşıqsayağı” əsərləri diqqətəlayiqdir. Həmçinin, Tofiq Quliyevin nağara və orkestr üçün “Ritm vəznləri” də bu qəbildəndir. Bu əsərlər konsert və tədris repertuarında əsas yer tutur.

Azərbaycan bəstəkarları xalq çalğı alətləri orkestri üçün süita janrına çox diqqət yetirmiş, bu janrda rəngarəng mövzulu, maraqlı əsərlər yaratmışlar. Bunları da öz növbəsində rəqs xarakterli süitalara və proqramlı

süitalara bölmək olar.

Bunlardan Səid Rüstəmovun “Azərbaycan” süitasını, Zakir Bağırovun “Rəqs süitası”nı, Arif Məlikovun iki süitasını, Vasif Adıgözəlovun süitasını, Hacı Xanməmmədovun “Azərbaycan eskizləri”, “Kolxoz”, “Bayram” süitalarını, Nəriman Məmmədovun “Səadət şəfəqi” süitasını, Süleyman Ələsgərovun “Aşıqsayağı” süitasını, Ramiz Mirişlinin “Naxçıvan lövhələri”ni, Dadaş Dadaşovun süitalarını, R.Zöhrabovun süitalarını, Oqtay Kazımovun “Sumqayıt lövhələri”, Azər Dadaşovun “Qaravəllilər”, Həsən Adıgözəlzadənin “Babamın oyandırıcı saatı” və s. süita janrında yazılmış əsərləri göstərə bilərik. Bütün bu əsərlər özünəməxsus keyfiyyətləri, janr və musiqi dilinin xüsusiyyətləri ilə fərqlənirlər.

Xalq çalğı alətləri orkestrinin repertuarında instrumental konsertləri xüsusi olaraq qeyd etməliyik. Azərbaycan bəstəkarları solo alət və orkestr üçün çoxsaylı konsertlər yaratmışlar. Burada bir cəhətə diqqəti yönəltmək istərdik. Bu da bir sıra konsertlərin məhz xalq çalğı alətləri orkestri üçün nəzərdə tutulmasıdır. Bunlardan S.Rüstəmovun Tar ilə xalq çalğı alətləri orkestri üçün konsertini, S.Ələsgərovun tar ilə orkestr üçün üç konsertini, C.Cahangirovun tar ilə orkestr üçün konsertini, F.Əmirovun Fortepiano və xalq çalğı alətləri orkestri üçün Konsertini, V.Adıgözəlovun Fortepiano və xalq çalğı alətləri orkestri üçün Konsertini və s. əsərləri qeyd etmək olar.

Beləliklə, Azərbaycanda xalq çalğı alətləri orkestrinin repertuarının izlənilməsi göstərdi ki, orkestrin yarandığı ilkin mərhələdə repertuar əsasən işləmələrdən ibarət idisə, artıq müasir dövrdə Azərbaycan bəstəkarlarının xalq çalğı alətləri orkestri üçün kiçik və iri həcmli, müxtəlif janrlı əsərləri çoxluq təşkil edir. Bu da xalq çalğı alətləri orkestrinin repertuarının zənginləşməsi və inkişafı prosesini dolğun əks etdirir.

Dissertasiyanın **Nəticə** bölməsində tədqiqata yekun vurulur. Azərbaycanda xalq çalğı alətləri orkestri və dirijorluq sənətinin təşəkkülü və inkişaf yollarının öyrənilməsi ilə bağlı əldə olunan nəticələr qeyd edilir.

Azərbaycanda musiqi kollektivlərinin və dirijorluq sənətinin yaranması və inkişafı milli musiqimizin korifeyi Üzeyir Hacıbəylinin adı ilə bağlıdır. Biz Ü.Hacıbəylini bəstəkar, təşkilatçı və bədii rəhbər kimi xarakterizə edərək, onun həm opera və operetta, simfonik və xor, həm də xalq çalğı alətləri orkestri dirijoru fəaliyyətini elmi baxımdan araşdırırıq. Eyni zamanda, Üzeyir bəyin tövsiyəsi və rəhbərliyi ilə dirijorluq sənətinə gəlmiş Müslüm Maqomayev opera-simfonik dirijoru kimi, Səid Rüstəmov xalq çalğı alətləri orkestri dirijoru kimi musiqi tarixinə daxil olmuşlar.

XX əsr Azərbaycan musiqi mədəniyyətinin inkişafında fenomenal hadisələrdən biri də 1931-ci ildə Azərbaycan Xalq çalğı alətləri orkestrinin yaradılması idi. Bu orkestrinin meydana gəlməsi XX əsrin başlanğıcında intensiv şəkildə baş verən Şərq və Qərb musiqi təfəkkür tiplərinin sintezinin təzahür formalarından biri idi.

İlk Azərbaycan xalq çalğı alətləri orkestri bir çox musiqi kollektivlərinin təşəkkülünə və inkişafına təsir göstərmişdir. Bunun nəticəsində Ü.Hacıbəyli adına Azərbaycan Dövlət Konservatoriyasında (indiki Bakı Musiqi Akademiyası), Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetində, XXI əsrin əvvəllərində fəaliyyətə başlayan Azərbaycan Milli Konservatoriyasında, Asəf Zeynallı adına Bakı Musiqi Kollecində və digər musiqi təhsili ocaqlarında xalq çalğı alətləri orkestri, eləcə də ikinci professional kollektiv – Filarmoniyanın nəzdində Azərbaycan Dövlət xalq çalğı alətləri orkestri yaradılmışdır. Bu da orkestr ifaçılıq təcrübəsinin, alətləşdirmə və orkestrləşdirmə fənlərinin tədrisinin genişlənməsinə təkan verdi.

Əlbəttə ki, xalq çalğı alətləri orkestrinin yaranması kimi əlamətdar hadisənin təsir dairəsini yalnız Azərbaycanın mədəni həyatının çərçivəsi ilə məhdudlaşdırmaq olmaz. Şərqdə ilk notlu xalq çalğı alətləri orkestrinin yaradılması sübut etdi ki, Azərbaycan milli musiqi alətlərinin imkanları həqiqətən tükənməzdir. Son dərəcə önəmli tarixi missiyanı yerinə yetirən Ü.Hacıbəyli və M.Maqomayev Şərqdə ilk notlu xalq çalğı alətləri orkestrinin əsasını qoymuşdur ki, bu tarixi hadisədən bir qədər sonra, 1934-cü ildə Kurmanqazı adına Qazaxıstan Xalq çalğı alətləri orkestri, 1938-ci ildə isə Özbəkistan xalq çalğı alətləri orkestri yaranmışdır.

Azərbaycan xalq çalğı alətləri orkestri ustad ifaçı və bəstəkar kadrları yetişdirən bir məktəb olmuşdur. Xalq çalğı alətləri orkestrinin inkişaf tarixini nəzərdən keçirərkən, bu orkestrə uyğun üslub tərzinin nə dərəcədə dəyişdiyini, yeniləşdiyini, müasirləşdiyini izləmək olar. Əlbəttə ki, xalq çalğı alətləri orkestri üçün 1930-40-cı illərdə yazılmış əsərlərdə müəyyən üslub xüsusiyyətləri formalaşmışdır ki, bəzi əsərlərdə bunlar hələ də özünü göstərir. Müasir bəstəkarlar nəslinin nümayəndələrinin əsərləri bu sahədə yeni axtarışlar və tapıntılarla diqqəti cəlb edir.

Müasir dövrdə xalq çalğı alətləri orkestrinin repertuarı bəstəkarların bu orkestr tərkibi üçün yaratdıqları orijinal əsərlərlə çox zənginləşmiş və genişlənmişdir. Məhz xalq çalğı alətləri üçün müxtəlif musiqi janrlarını və formalarını əhatə edən əsərlərin yazılması və onların ifa olunması ənənəvi formaların hüdudlarını genişləndirir, musiqimizin intonasiya dairəsini

zənginləşdirir.

Azərbaycanın musiqi tarixində xalq çalğı alətləri orkestri ilə bağlı bir çox musiqi xadimlərinin – bəstəkar, dirijor, musiqi ifaçılarının adları iz salmışdır. Onların irsinin, yaradıcılıq üslubunun öyrənilməsi, açıqlanması, ifaçılıq təcrübəsindən istifadə edilməsi zəruri məsələlərdəndir. Bunun sayəsində milli və dünya musiqi klassikasının xalq çalğı alətləri və orkestr ifaçılığına daxil olması genişlənir.

**Dissertasiyanın məzmununa uyğun olaraq müəllifin aşağıdakı elmi məqalələri çap olunmuşdur:**

1.“Azərbaycan xalq çalğı alətləri orkestri və dirijorluq sənəti”. Aspirantların və gənc tədqiqatçıların respublika elmi konfransının materialları (23-24 fevral 1999-cu il) II cild, Bakı,1999, s.119

2.“S.Rüstəmovun xalq çalğı alətləri orkestrində dirijor və bəstəkar kimi rolu”. Musiqi sənəti: problemlər, perspektivlər, Bakı, 2002, s.36-40

3.“Milli folklorumuzun daimi təbliğatçısı”. Türsoy xalqlarının musiqi mədəniyyətinin tədqiqi problemləri, VIII Respublika elmi-praktiki konfransı, Bakı 2009, s.31 - 33

4.“Azərbaycanda dirijorluq sənətinin təşəkkülündə Üzeyir Hacıbəylinin rolu”, “Musiqi dünyası”, 2009, 1 – 2 /39, s.160-161

5.“Azərbaycan xalq çalğı alətləri orkestrinin yaradılmasında Ü.Hacıbəylinin və M.Maqomayevin rolu”. Türksoylu xalqların musiqi mədəniyyərinin tədqiqi problemləri, X Respublika elmi-praktiki konfransının materialları, Bakı, 2011, s.64 - 66

6.“Оркестр Азербайджанских народных инструментов”. Поиск. Научный журнал министерства образования и науки, Казахстан № 3 (1), 2012, s.98- 102

7.“Azərbaycanda dirijorluq sənətinin əsas istiqamətləri”. Mədəniyyətlərarası dialoqda ənənəvi incəsənətin rolu, ADMİU-nun 90 illiyinə həsr olunmuş Beynəlxalq elmi konfransın materialları, Bakı, 2012, s.80-82

8.“Azərbaycan xalq çalğı alətləri üçün işləmələr”. “Mədəni həyat”, 3*2013, s.85-89

9. “Azərbaycan bəstəkarlarının xalq çalğı alətləri orkestri üçün əsərləri,”Musiqi dunyası”,2013,1-2/55,səh.107-109

10.”Azərbaycan xalq çalğı alətləri orkestrinin tərkibi və repertuar məsələsinə dair”ADMİU.”Elmi əsərlər”,№ 15,Bakı,2013,səh 203-207

**Гасымова Мехрибан Абдуррагим кызы**

## «Становление и этапы развития дирижерского искусства в азербайджанской музыке (оркестр народных инструментов)»

## РЕЗЮМЕ

Диссертация посвящена изучению дирижерского искусства по оркестру азербайджанских народных инструментов. В этом аспекте рассматривается состав оркестра азербайджанских народных инструментов. Автор рассматривает репертуар оркестра азербайджанских народных инструментов, состоящий из обработок и переложений, а также оригинальных композиторских произведений, характеризует исполнительские качества разных оркестров, действующих в республике.

Диссертация состоит из введения, 3-х глав, заключения и библиографии.

**I глава «Пути развития дирижерского искусства в Азербайджане»** состоит из трех разделов: **1.1. «Основные направления дирижерского искусства в Азербайджане»; 1.2. «Формирование дирижерского искусства по оркестру народных инструментов»; 1.3. «Основы дирижирования по оркестру азербайджанских народных инструментов».**

**II глава «Творческий путь оркестра азербайджанских народных инструментов»** состоит из трех разделов: **2.1. «Вопросы изучения азербайджанских народных инструментов в музыковедческих исследованиях»**; **2.2. «Оркестр народных инструментов имени Саида Рустамова Азербайджанского Телевидения и Радио»; 2.3. «Азербайджанский Государственный Оркестр народных инструментов имени Фикрета Амирова».**

**III глава «Репертуар оркестра народных инструментов и вопросы интерпретации произведений» состоит из двух разделов: 3.1. «Обработки для оркестра народных инструментов»; 3.2. «Оригинальные произведения написанные для оркестра народных инструментов».**

В **заключении** даются выводы и обобщения проведенного музыкального анализа.

**Gasimova Mehriban Abdurrahim gizi**

## "The formation and development stages of the conductor's art in Azerbaijan music (orchestra of folk instruments)"

## SUMMARY

The dissertation is devoted to the Orchestra conductor's art of Azerbaijani folk instruments. In this aspect, is considered the orchestra of Azerbaijan folk instruments. The author examines the repertoire of Azerbaijani folk instruments orchestra, consisting of treatments and transcriptions and original works of composers, performing quality characterizes the different bands operating in the country. The dissertation consists of introduction, 3 chapters, the conclusion and the bibliography.

**Chapter I "Development of the conductor's art in Azerbaijan"** consists of three sections: **1.1. "Main directions of the conductor's art in Azerbaijan" 1.2. "Shaping the conductor's art to the Orchestra of Folk Instruments' 1.3. "Fundamentals of conducting the Orchestra of Azerbaijan folk instruments."**

**Chapter II "The career of Azerbaijani folk instruments orchestra"** consists of three sections: **2.1. "The study of Azerbaijani folk instruments in musicological research"; 2.2. "Orchestra of Folk Instruments named Said Rustamov Azerbaijan TV and Radio"; 2.3. "Azerbaijan State Orchestra of Folk Instruments named Fikret Amirov."**

**Chapter III "The repertoire of the orchestra of folk instruments and interpretations of issues" consists of two sections: 3.1. "Treatments for Orchestra of Folk Instruments"; 3.2. "The original work written for an orchestra of folk instruments."**

In **conclusion** is given inference and generalizations of musical analysis.

**МИНИСТЕРСТВО ОБРАЗОВАНИЯ
АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ**

**БАКИНСКАЯ МУЗЫКАЛЬНАЯ АКАДЕМИЯ
им.У.ГАДЖИБЕЙЛИ**

*На правах рукописи*

**МЕХРИБАН АБДУРРАГИМ гызы ГАСЫМОВА**

# СТАНОВЛЕНИЕ И ЭТАПЫ РАЗВИТИЯ ДИРИЖЕРСКОГО ИСКУССТВА В АЗЕРБАЙДЖАНСКОЙ МУЗЫКЕ (ОРКЕСТР НАРОДНЫХ ИНСТРУМЕНТОВ)

**6213.01 – Музыкальное искусство**

**А В Т О Р Е Ф Е Р А Т**

**диссертации на соискание ученой степени
доктора философии по искусствоведению**

**БАКУ - 2013**